# Kredo

Müstəqil ictimai-siyasi, publisistik qəzet №23 (1279) 02 iyul 2025-ci il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır


# DİLİN SİRRİ - SÖZÜN CAZİBƏSİ

## *Şəfəq Nasirin ədəbi taleyində düşüncə zənginliyi, fikir aydınlığı*

*Sənətkarın taleyi şəfəq saçar sözündə,*
*Yaşarı sözü olsa, bəxti gülər gözündə.*
*Sinəsində ürəyi odlanar dilim-dilim,*
*Əbədi qor saxlayar ocağında, közündə.*

Əli Rza XƏLƏFLİ

*Elə indicə düymə-düymə çöllərin yaxasına düzülən çiçəklərin içindəydim axı. Bəs o şehli kəpənəklər necə oldu? Xalları lap lalə rəngli donumun güllərinə bənzəyirdi. Bəs o qırmızı buludlar? Bəs o uca dağların belindən kəmər kimi açılan ağappaq hörüyə bənzəyən şəlalə? Deməli, bütün bunlar yuxuymuş, hə?..*

Şəfəq NASİR



Yazıçı zamanın saatıdır; yazıçı dayananda onun zaman saatı da dayanır. Yazıçının zaman saatı ürək enerjisi ilə, düşüncə mexanizmi ilə işləyir. Burada hər şey ilahi bir nizama tabedir. *"Elə indicə..."* sözləri ilə başlanan cümlənin poetik ahənginə diqqət kəsilmək bəs eləyir ki, sözlərin ilahi düzülüşünü nəinki duyasan, hətta gözlərinlə görəsən. İncə saitlərin yaratdığı ahəng qələmin necə ilahi vəhylə sözləri bir-birinin arxasınca düzməsi xüsusi bir cazibə yaradır. Oxucunun könül quşu cümlənin xəyalı apara biləcəyi üfüqlərəcən pərvazlanır.

Şəfəq Nasir dilin bətnində yatan sirlərin içində böyüyüb. Bunun üçün onun yaşam yolunu öyrənməyə də lüzum yoxdur. Çünki onun yazdıqları elə düşüncəsinin müəllif yazısıdır, ədəbi taleyinin özüdür. Epiqraf üçün seçilmiş mətnin alt və üst qatlarını ayırmaq, bəlkə də, adi oxucu üçün bir qədər çətindir. Sıradan oxucu mətnin cazibəsində hərəkət eləyir. Heç özünün də xəbəri olmur ki, mətnin sonuna necə çatır. Sıradan olmayan, xüsusi duyum və bilgi sahibi olan oxucu mətnin o biri üzünü də görə bilir. Bir neçə cümlənin içərisinə müəllif ədəbi obrazın itirilmiş, bəlkə də, bir quş kimi pərvazlanıb əlindən uçmuş ömrünü sığışdıra bilib.

Dilin alt laylarına bələdlik imkan verir ki, yazıçı sözünü cazibə enerjisi ilə yükləsin. Şehli çiçəklər üstə uçan kəpənəklərin səssiz oxuduqları nəğməni hər kəs eşitməsə də yazıçı eşidə bilir. İndi o kəpənəklər yoxdur. Yazıçı ritorik sualla artıq uzaq keçmişdə qalmış xoşbəxt uşaqlıq çağlarını yalnız hissin, emosiyanın təsiri ilə göz önündə canlandırır. Lalə rəngli donun xalları ilə ecazkar, ilahi biçimli kəpənəyin xalları arasındakı bənzərlik saflığı, ülvi bir aydınlığı diqqətə gətirir.

Hər bir yazıçının mənəvi mühiti rənglərdən ibarətdir. Hansı yazıçının yaradıcılıq mühitində hansı rəng üstünlük təşkil edirsə, onun təbii mühitinin ölçüləri, kriteriyaları da həmin rənglə üstünlük təşkil edir. Şəfəq Nasirin yaradıcılığında da humanizmi xarakterizə edən rənglər daha qabarıq görünür. O, insanı ali mərtəbədə görür. Onun ölçülərinə görə insanın təbiətinə heç bir halda təcavüz etmək olmaz. Yəqin ki, Ş.Nasir öz hekayələrini də, ən başlıcası 20 Yanvar məzmunlu yazılarını da elə bu "Kredo"nun təsiri altında yazıb. Onun düşüncəsinə görə insan o qədər azad və özünəinamlı olmalıdır ki, o, qənaətlərində yalnız özünün mənəvi mühitini araya-ərsəyə gətirməlidir.

Şübhəsiz, bu, bir yazıçı kredosudur. Yazıçı əslində, həyatın gətirdiyi hikmətlərin təsiri altında özünüifadəyə çalışır. Bu da onun göstəricisidir ki, yazıçı təbiət etibarı ilə azaddır. Ancaq siyasi mühit, mənəvi mühit yazıçını sıxanda o, özünüifadədə çətinlik çəkir və o zaman ağrılar meydana gəlir. Və ağrılar yazıçıda, yazıçının sənət nümunələrində istər-istəməz görünür.

Ən böyük sənətkarlıq odur ki, yazıçı onu sıxan mühiti "sən məni sıxırsan mühit" demədən həmin prosesi öz yazısı ilə üzə çıxara bilir. Bu zaman sənətkarlıq özünü kifayət qədər təsdiq edir. Və əlbəttə, bu yöndə sənət nümunəsi araya-ərsəyə gəlir.

Mənə elə gəlir ki, Ş.Nasirin yaradıcılığında kifayət qədər istedadın özünü göstərmək imkanları olub. Ancaq dövrün, zamanın yaralı mühiti, ağrılı mühiti istər-istəməz onun yaradıcılığında da iz buraxıb və bu mənada, Ş.Nasiri elə həm də dövrünün sənətkarı, zamanın yazarı kimi qəbul etməkdə haqlıyıq.

Kimdən soruşsan deyər ki, buludlar ağ rəngdədir. Amma Şəfəqin od tutub yandığı üfüqlərdə buludların al-qırmızı qana boyandığını hansımız görməmişik?

Bir neçə cümlənin üzərindəki söz gəzişmələri imkan verir ki, sənətkarın vergili bir aləmin seçilmişi kimi müasirimiz olmağından duyduğumuz fərəhi gizlətməyək.

Şəfəq Nasirin Qarabağ mövzusu Vətən ağrıları, insan taleləri fonunda onun bütün yaradıcılığı boyu damarda dövr eləyən qan kimi dolanır. Sənətkar dilin sirrinə vaqif olanda sözünə cazibə donu biçə bilir. Forma məzmunla qarşılıqlı münasibətdədir. Şəfəq Nasirin biçdiyi donlar mahiyyəti tamamlayır, araya-ərsəyə gələn varlığa - əsərə düşüncə aydınlığı gətirir.

Şəfəq Nasir özü də ədəbi obraz kimi yaradıcılığından boy göstərir. Onun kimliyini, nəyi və necə yazdığını görmək, yaxud görə bilmək - artıq cəmiyyətin işidir. Bizdə isə yazıçı taleyinə ürəksıxıcı bir biganəlik var.

Sənətkarı tanımaq şərtdir. Ancaq daha üstün şərt onu başa düşmək, anlamaqdır. Şəfəq Nasir özünü anlada bilən sənətkardır. Kitaba çevrilmiş və kitab olacaq əsərləri ilə o, bizimlə tam aydın və şirin bir dillə danışır.

Yazıçının uğuru dilin sirrini bilməkdən başlanır.

Yazıçının taleyi sözünün cazibəsindən keçir.

Yazıçının zaman saatı... yazıçının düşüncə mexanizmi... ürək döyüntüləri...

Şəfəq Nasirin zaman saatı bu gün də öz axarındadır.

*Əli Rza XƏLƏFLİ*

*02.07.2019*